***BULLİNQ HALLARININ PROFİLAKTİKASI***
***PREVENTING BULLYING***
***ПРЕДОТВРАЩЕНИЕ СЛУЧАЕВ ИЗДЕВАТЕЛЬСТВ***

*UOT 37.1*

***Günay Hümbət qızı Məmmədzadə***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin*
*Sosial-mədəni fəaliyyət kafedrasının baş müəllimi*
*https://orcid.org/0000-0002-8484-1792*
*E-mail:gunaymemmedzade08@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).294-299*

# YENİYETMƏLİK DÖVRÜNDƏ BULLİNQ HALLARININ PEDAQOJİ TƏHLİLİ VƏ PROFİLAKTİKASI

***Gunay Humbat Mammadzada***
*doctoral student of the doctor of philosophy program of the*
*Institute of Education of the Republic of Azerbaijan,*
*teacher of the department of Social and cultural activities of*
*the Azerbaijan State University of Culture and Arts*

# PEDAGOGICAL ANALYSIS AND PREVENTION OF BULLYING DURING ADOLESCENCE

***Гюнай Гумбат гызы Мамедзаде***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики,*
*преподаватель кафедры Социально-культурной деятельности*
*Азербайджанского Государственного Университета Культуры и Искусств*

# ПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ И ПРОФИЛАКТИКА БУЛЛИНГА В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

**Xülasə.** Məqalədə yeniyetməlik dövründə baş verən bullinq hallarına pedaqoji cəhətdən yanaşılmış, qarşısının alınması üçün profilaktik yanaşmalar irəli sürülmüşdür. Tədqiqatda yeniyetməlik dövrünün psixoloji və sosial xüsusiyyətləri nəzərə alınaraq, qız və oğlanlar arasında bullinq növlərinin yayılma formaları müqayisəli şəkildə təqdim olunmuşdur. Məqalədə həmçinin yeniyetməlik dövründə baş verən intihar hallarında bullinq hallarının təsiri də təqdim olunaraq məsələnin ciddiliyinə nəzər yetirilmişdir. Problemin həlli istiqamətində lider şagirdlərin sosial təsiri, müsbət məktəb mühiti, valideyn və məktəb işbirliyi, bullinqlə bağlı məlumatlandırıcı seminarların təşkili təklif olunmuşdur.
***Açar sözlər:*** *bullinq, yeniyetmə, intihar, lider şagird, mübarizə*

**Abstract.** The article presents a pedagogical approach to bullying in adolescence and proposes preventive approaches to prevent it. The study presents a comparative analysis of the forms of bullying among girls and boys, taking into account the psychological and social characteristics of adolescence. The article also presents the impact of bullying on suicides in adolescence, and examines the seriousness of the issue. The social influence of leader students, a positive school environment, parent-school cooperation, and the organization of informative seminars on bullying are proposed to solve the problem.
***Keywords:*** *bullying, teenager, suicide, leader student, struggle*

**Аннотация.** В статье рассматривается буллинг в подростковом возрасте с педагогической точки зрения и предлагаются профилактические подходы для его предотвращения. В исследовании представлен сравнительный анализ распространенности буллинга среди девочек и мальчиков с учетом психологических и социальных особенностей подросткового возраста. В статье также отмечено влияние буллинга на самоубийства в подростковом возрасте и рассматривается серьезность проблемы. Для решения проблемы предлагается социальное влияние учеников-лидеров, позитивная школьная среда, сотрудничество родителей и школы, а также организация познавательных семинаров по буллингу.

***Ключевые слова:*** *буллинг, подросток, самоубийство, ученик-лидер, борьба*

Yeniyetməlik (adolescence) latın mənşəli "adolescentia" sözündən götürülmüşdür və "böyümək, yetkinləşmək" mənalarını ifadə edir. Yeniyetməlik eyni zamanda "pubescence, pubescere" terminləri ilə də ifadə olunur ki, bu terminlər daha çox yeniyetməlik dövrünün bioloji xüsusiyyətlərinə diqqət çəkir və mənası "tüklənmək, yetkinliyə çatmaq" deməkdir. (Oksford lüğəti)

Yeniyetməlik dövrü haqqında fikirlər mübahisəli olsa da bir çox alimlərin qənaətinə görə bu mərhələ 10-11 yaşdan başlayaraq 14-15 yaşa qədərki dövrü əhatə edir. Qeyd olunmalıdır ki, bəzi alimlər dövrün 18 yaşına qədər davam etdiyini bildirir.

Yeniyetməlik dövrü öz psixoloji, sosial xüsusiyyətlərinə görə böhran dövrü də adlanır. Keçid dövrü kimi xarakterizə olunan yeniyetməlik mərhələsində yeniyetmənin həyatında bir sıra mühüm dəyişikliklər baş verir. Bu dəyişikliklər fiziki, psixoloji və sosial cəhətdən təhlil edildikdə müəyyən olunur ki, fiziki baxımdan yeniyetmənin orqanizmində hormonal dəyişikliklər müşahidə olunur, psixoloji baxımdan o, öz "mən"ini dərk etməyə və şəxsiyyətini formalaşdırmağa çalışır, sosial baxımdan isə sosiallaşmağa meyillənir, dost qruplarına qoşulmağa və onlarla ünsiyyət qurmağa can atır.

Bu dövr yeniyetmənin həyatında sürətli şəkildə bioloji, psixoloji və sosial dəyişikliklərin getdiyi dövr olub, fərdin gələcəyi ilə bağlı planlar qurduğu və sosial mühitdə özünə yer tutmağa çalışdığı dövrdür. (Eskin, 2008: s.384)

Eriksonun psixososial inkişaf nəzəriyyəsinə əsasən yeniyetməlik dövrünün əsas inkişaf mərhələsi "kimlik qazanmaq və kimlik çaşqınlığıdır". Fərd bu mərhələdə sağlam kimliyini qazana bilməzsə, gələcəkdə özünü itirmə, sosial və emosional uyğunsuzluq riski artır. (Erikson, 1968: 157 ).

Psixoloq H.S. Sallivan yeniyetməlik dövrünü üç mərhələyə bölür. I mərhələ ön yeniyetməlik dövrü. Bu dövr uşaqlıqdan yeniyetməliyə keçidin ilkin pilləsi olub, dostluq münasibətləri qurmaq, qarşı cinslə əlaqələr yaratmaq kimi xüsusiyyətləri özündə ehtiva edir. II mərhələ gənc yeniyetməlik dövrü. Bu dövrdə cinsi yetkinliyin ilkin mərhələsi müşahidə olunur. III mərhələ yetkin yeniyetməlik dövrüdür. Bu dövrdə cinsi davranış modelləri formalaşır. (Sullivan, 1953: 242)

Sosiallaşma prosesinin sürətləndiyi, şagirdlərin özünü təsdiq etmək istədiyi bu dövrdə fərdlərarası münasibətlərdə də müəyyən çətinliklər yaranır. Belə problemlər həmyaşıdlar arasında bullinq hallarının yaranmasına gətirib çıxarır.

Bullinq bir və ya bir neçə şagirdin özündən gücsüz və özünü müdafiə edə bilməyən şagirdi qəsdən və zərər vermək məqsədilə vurması, itələməsi, ləqəb qoşması, lağ etməsi, əsəbləşməsi, təhdid etməsi, əşyalarına zərər verməsidir. (Pişkin, 2002: 538). Bullinq bir və ya bir neçə şagirdin eyni zamanda özlərindən daha zəif şagirdə zərər vermək, narahat etmək və ya alçatmaq, əzab vermək və ya işgəncə vermək cəhdləridir. (Page, 2003: 257)

Hər aqressiv davranış forması bullinq adlandırıla bilməz. Hər hansı bir aqressiv davranış formasının bullinq adlandırıla bilinməsi üçün onun davamlı, sistemli olması və buller, qurban və şahid kimi iştirakçılarının olması vacibdir. Məsələn: 7-ci sinif şagirdləri arasında hər-hansı bir səbəbdən müəyyən aqressiya baş vermişdir və bu zaman şagirdlərdən fiziki zədə alanlar olmuşdur. Bu hal bir dəfə baş vermişdir. Belə davranış bullinq adlanmır. Bu hadisə sadəcə zorakılıq olaraq qeydə alına bilər. Lakin, hər hansı bir şagird özündən zəif şagirdə davamlı olaraq aqressiya göstərirsə, ona fiziki, psixoloji zərər verirsə, sözlə təzyiq edirsə bu hadisə bullinq adlanır. Qeyd olunmalıdır ki, bullinq hallarında mütləq tərəflər arasında güc bərabərsizliyi mövcud olmalıdır.

Tədqiqatlara əsasən müəyyən olunmuşdur ki, yeniyetməlik dövründə şagirdlər arasında bullinq hallarının sayı digər yaş qruplarına nisbətən daha yüksəkdir. (Olveus, 1993: 9-15).

Ümumiyyətlə, orta məktəb yaş dövründə bullinq halları öz pik həddinə çatır. (Kreiq, Pepler və b., 2007: 465-477). Bu dövrdə həm bullinq edənlərin, həm də qurbanların sayı digər yaş dövrlərinə nisbətdə çoxdur. ABŞ-da 15 mindən çox şagird arasında aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki bullinq halları əsasən 12-15 yaşlı şagirdlər arasında daha geniş yayılmışdır. (Nansel və b., 2001)

Yeniyetmələr arasında bullinqə səbəb isə yeniyetməlik dövrünün öz xarakterik xüsusiyyətləridir. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

**1. Kimlik axtarışı və sosial status uğrunda mübarizə**

Sosial qruplar arasında status qazanmaq, məktəbdə və sinifdə məşhur və sözükeçən olmaq, hər kəsin qorxaraq hörmət etdiyi biri olmaq bəzən şagirdləri buller olmağa həvəsləndirir. Yuxarı siniflərdə fiziki və psixoloji üstünlük göstərməyə çalışan şagirdlərin davranışı "qəhrəmanlıq" kimi qarşılandığına görə hərəkətlərin bullerlər tərəfindən təkrarlanmasına yol açır. Bu halda isə digər şagirdlər qurban vəziyyətinə düşür.

**2. Emosional qeyri sabitlik.**

Erkən yeniyetməlik dövründə şagirdlərin orqanizimində baş verən hormonal dəyşikliklər onların emosional halətlərinə təsir edə bilir. Bu dəyişikliklər onlarda emosional qeyri sabitlik, narahatlıq, qıcıqlanma və aqressiv davranış yarada bilir. Bəzi hallarda şagirdlərin öz emosiyalarını idarə etməkdə çətinlik çəkmələri həmyaşıdları ilə münasibətlərinə də birbaşa təsir edir. Xüsusilə də neqativ şəkildə fikirlərinin ifadəsi bullinq kimi neqativ davranış formalarının yaranmasına zəmin yarada bilir.

**3. Liderlik uğrunda mübarizə.**

Yeniyetməlik dövründə şagirdlər arasında liderlik uğrunda mübarizə daha çox özünü biruzə verir. Bəzən isə yeniyetmələr məqsədlərinə çatmaq üçün bullinqdən istifadə edirlər.

**4. Empatiya hissinin tam formalaşmaması.**

Yeniyetməlik dövründə şagirdlərdə "eqo" daha yüksək olduğundan onlarda başqalarına zərər verməyin mənəvi və sosial nəticələri lazımi qədər dərk olunmur. (Gini və b., 2007: 471)

**5. Məktəbdə nəzarətin zəif olması.**

Bəzən məktəbdə müəllim və ya məktəb rəhbərliyinin bullinq halları ilə bağlı məlumatlarının az olması, təhlükəli davranışları vaxtında müəyyənləşdirə bilməməsi bullinq hallarının artmasına gətirib çıxarır.

Tədqiqatlar əsasında müəyyən olunmuşdur ki, bullinq hallarına yeniyetmə oğlanlar daha çox məruz qalırlar. Bu fakt həm bullerlər həm də qurbanlar üçün keçərlidir. Oğlanlar arasında liderlik uğrunda mübarizə, status qazanmaq istəyi, özlərini təsdiqləmək məqsədilə aqressiv davranışlara, xüsusilə də fiziki bullinqə meyillilik müşahidə edilir. Dan Olveusun araşdırmalarına əsasən yeniyetmə oğlanlar həm fiziki bullinqin əsas icraçıları, həm də əsas qurbanları kimi çıxış edirlər. (Olweus, 1993).

Araşdırmalar əsasında müəyyən edilmişdir ki, yeniyetmə qızlar arasında bullinqin əsasən sözlü, psixoloji və sosial formaları özünü göstərir. Bu bullinq növləri digər bullinq növlərindən münasibət əsaslı olmaları ilə fərqlənir. Yeniyetmə qızlar qurbanlarını təhqir etmək, haqlarında şayiələr yaymaq, alçaldıcı ifadələrdən istifadə etmək, qruplardan təcrid edərək sosiallaşmalarına mane olmaq kimi strategiyalardan daha çox istifadə edirlər. Bu cür davranışlar qurbanlarda özünəinamı, özünəhörməti azaldır və onların məktəbdən yayınmalarına səbəb olur. Qız bullerlər manipulyasiya bacarığının üstünlüyünə görə də oğlan bullerlərdən seçilirlər.

Bullinq halları yalnız yeniyetmələrin şəxsi və akademik inkişafına deyil, həm də onların ümumi həyat keyfiyyətinə də əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Bu cür stressə daimi olaraq məruz qalan yeniyetmələrdə özünəinam, özünəhörmət hissləri azalır və bu hal depressiya və digər emosional pozuntulara yol açır. Nəticədə bəzi hallarda bullinqin qurbanı olan yeniyetmələr intihara meyilli olur və bir çox hallarda da cəhd edirlər. Bəzi hallarda isə bullerlərin özü belə intihara cəhd edirlər. Bu səbəbdən də ümumtəhsil məktəblərində bullinq hallarının vaxtında aşkarlanması və effektiv müdaxilə strategiyalarının hazırlanması və həyata keçirilməsi ciddi əhəmiyyət kəsb edir.

Ümumdünya Səhiyyə Təşkilatının 2021-ci ildəki hesabatına əsasən əsasən 15-19 yaşlı gənclər arasında ölümün üçüncü əsas səbəbi intihardır. Bu intiharların səbəbləri arasında bullinq halları əsas faktorlardandır. (WHO, 2021) Hinduja və Patçinin tədqiqatları əsasında müəyyən edilmişdir ki, bullinq qurbanı olan yeniyetmələr arasında intihar düşüncəsi və davranışı 3-5 dəfə çoxdur. (Hinduja və Patchin, 2010: 218).

Vurğulanmalıdır ki, bullinqin növlərindən biri olan kiberbullinqə məruz qalan yeniyetmələr arasında intihar halları daha çoxdur. Bu faktı Bauman və başqaları da təsdiq edərək bildirirlər ki, kiberbullinqə məruz qalan yeniyetmələrin intihara cəhd etmə riski ənənəvi bullinqə məruz qalanlara nisbətdə daha çoxdur. (Bauman, Toomey və Volker, 2013: 346). Buna səbəb isə kiberbullinq zamanı qurbanı hədəfə alan şəkil, video və başqa materialların çox sürətlə geniş kütləyə çata bilməsidir. Bu cür hallarda kiberbullinqə məruz qalan yeniyetmə şagird qurban kimi hamı tərəfindən tanındığını düşünür və bu kimliyin onu bütün mühitlərdə izləyəcəyini zənn edir. Nəticədə, sosial damğalanma qorxusu və çıxış yollarının məhdudluğu onu intihara sövq edir.

Yeniyetmə qız və oğlanlar arasında bullinq səbəbindən intihar faktorlarının statistikası arasında da müəyyən fərqliliklər var. Araşdırmalara görə həm qız, həm də oğlanlar bullinq səbəbindən intihar edirlər. Lakin, bu seçim həm də məruz qaldıqları bullinqin növündən asılıdır. Yuxarıda qeyd etdiyimiz kimi, qızlar daha çox bullinqin sosial, sözlü və psixoloji növlərinə məruz qalırlar. Bu bullinq növləri onların emosional sağlamlığına zərər vuraraq onlarda depressiya, özünəqapanma və intihar kimi düşüncələrin yaranmasına səbəb olur. Tədqiqatlar göstərir ki, sosial münasibətlər pozulduqda, emosional travmalar yaşadıqda qızlar intihar düşüncəsinə daha çox meyilli olurlar. (Esposito və b., 2020). Yeniyetmə oğlanların psixoloji vəziyyətlərini gizlətməyə meyilli olmaları, özlərini ifadə etməkdə çətinlik çəkmələri, problemlərini bölüşməkdə çəkinməyə meyilli olmaları onlara qarşılaşdıqları emosional çətinlikləri həll etməkdə problem yaradır. Problemlərin caynağında qalan, maneələri aşa bilməyən yeniyetmələr isə intihara cəhd edirlər. Statistikalara əsasən oğlan yeniyetmələr arasında intihar nəticəsində ölüm halları qızlara nisbətən daha yüksəkdir və buna səbəb isə onlar tərəfindən istifadə edilən intihar üsullarının daha öldürücü olmasıdır. (CDC 2023)

**Yeniyetmələr arasında bullinqə qarşı ümumtəhsil məktəblərində profilaktik tədbirlər:**

**1. Məktəbin pedaqoji və texniki heyəti üçün bullinq təlimlərinin təşkili:**

Bu təlimlər müəllim və texniki heyətə bullinqin əlamətlərini tanımağa, müəyyən etməyə və müdaxilə etmə bacarıqlarına sahib olmağa kömək edəcəkdir.

Bu cür təlimlərdə yaş, cins, fərdi xüsusiyyətləri nəzərə almaqla yeniyetmələrlə davranış qaydaları da mənimsədilməli, yeniyetmələrin buller, qurban və şahid olmağa meyilli olmasını fərqləndirmək üçün strategiyalar öyrədilməlidir.

Bullinqə qarşı müdaxilə təlim proqramlarında yeniyetmələrin yaş, cins və fərdi psixoloji xüsusiyyətlərinin öyrədilməsi əsas tutulmalıdır. Təlimlər zamanı iştirakçılara buller (bullinqi törədən), qurban (bullinqə məruz qalan) və şahidin davranış göstəriciləri haqqında məlumat verilməlidir. Bu cür yanaşma tərzi həm bullinq hallarının erkən mərhələdə aşkar olunmasına, həm də müdaxilə proqramlarının effektiv işləməsinə şərait yaradır.

**2. Şagirdlərlə müntəzəm maarifləndirici seminarların keçirilməsi:**

Yeniyetməlik dövrünün xüsusiyyətləri nəzərə alınaraq onlara empatiya, emosional intellekt, konfliktin sülh yolu ilə həlli imkanları, rəqəmsal təhlükəsizlik məsələləri öyrədilməlidir. Rollu oyunlar, debatlar, real hadisələrin analizi metodları ilə davranış modelləri üzərində çalışılmalıdır.

**3. Şagirdlər üçün dəstək mexanizmlərinin yaradılması:**

Məktəblərdə şagirdlərin təhlükəsiz formada məruz qaldıqları bullinq halları ilə bağlı anonim məlumat vermək imkanı yaradılmalıdır. Bu məktəbin elektron ünvanı və ya məktəb qutusu ola bilər.

4. **Valideynlərlə əməkdaşlığın artırılması.**

Məktəblə valideynlər arasında əməkdaşlıq şagirdlərin düzgün şəxsiyyət kimi yetişməsi, akademik nailiyyətlər əldə etməsi üçün olduqca vacibdir. Valideyn dəstəyi olmadan məktəb təlim-tərbiyə prosesindən tam müsbət nəticə ala bilməz. Bu cür dəstək xüsusilə də yeniyetməlik dövründə daha önəmlidir. Bullinq hallarına qarşı mübarizədə valideyn müəllim (xüsusilə də sinif rəhbəri) əməkdaşlığını doğru formada qurmaq üçün ilkin olaraq valideynlər üçün də bullinqlə bağlı seminarlar təşkil olunmalıdır. Sonrakı mərhələlərdə sinfin mühitini yaxşılaşdırmaq üçün valideynlərlə birgə iş aparılmalıdır. Xüsusilə də buller və qurbanların valideynləri ilə birgə görüşlər keçirilməli, şagirdlərin davranışlarının qaynağı müəyyənləşdirilməli və mə-

sələnin həlli üçün birgə strategiyalar hazırlanmalıdır.

**5. Məktəb psixoloqunun işinin genişləndirilməsi**

Psixoloqlar şagirdlərə yeniyetməlik dövrünün psixo-sosial və eləcə də fizioloji xüsusiyyətləri haqqında məlumat verərək onlara bəzi davranışlarının səbəbini aydınlaşdırmalı, aqressiya hissi ilə mübarizə və empatiya hissinin inkişafı üçün dəstək durmalıdırlar. Xüsusilə də cinsi bullinqin daha geniş vüsət aldığı yeniyetməlik dövründə şagirdlərə cinsi xüsusiyyətlər izah olunmalıdır.

**6. Pozitiv məktəb mühitinin formalaşdırılması**

Yeniyetmələrə hörmət, müxtəlifliyə dözümlülük və bərabərlik dəyərləri aşılanmalıdır. Məktəbin pedaqoji və texniki heyətinin də şagirdlərə qarşı dözümlü və müsbət davranışı məktəbin ümumi mühitinə öz müsbət təsirlərini göstərəcəkdir.

**7. "Lider" şagirdlərin bullinqlə mübarizədə dəstəyi**

Məktəb daxilində lider şagirdlərin təsir imkanlarından istifadə edərək bullinqə qarşı mübarizə strategiyaları qurmaq da öz müsbət nəticələrini verir.

**Nəticə.** Tədqiqatın nəticələri müəyyən edir ki, ümumtəhsil məktəblərində yeniyetmələr arasında bullinq hallarının qarşısının alınması üçün kompleks və sistemli profilaktik tədbirlərin keçirilməsi vacibdir. Məktəbin idarə he-yətinin, müəllim və valideynlərin birgə fəaliyyəti, yeniyetmələr arasında sosial-emosional bacarıqların inkişaf etdirilməsi, məktəb heyəti, valideyn və şagirdlərin bullinqlə bağlı maarifləndirilməsi bu problemin azalmasında mühüm rol oynayır. Bununla yanaşı məktəb mühitində inklüzivlik və qarşılıqlı hörmətə əsaslanan tərbiyəvi yanaşma da bullinq hallarının qarşısının alınmasında müsbət nəticələrin əldə olunmasına kömək edir.

**Problemin aktuallığı.** Son illərdə ümumtəhsil məktəblərində, xüsusilə də yeniyetmələr arasında bullinq kimi mənfi davranış formalarının artması müşahidə olunur. Məqalə məhz bu problemə həsr olunmuş və problem və onun profilaktikası üçün müxtəlif pedaqoji təhlillər aparılmışdır.

**Problemin elmi yeniliyi.** Məqalədə yeniyetməlik dövründə baş verən bullinq halları pedaqoji baxış bucağından dəyərləndirilmişdir. Dövrün xüsusiyyətləri müəyyənləşdirilmiş, yeniyetmə qız və oğlanlar arasında bullinq növlərinin yayılma fərqləri təhlil olunmuşdur. Müəyyən edilmişdir ki, oğlanlar fiziki və birbaşa aqressiv davranış formalarına meyilli olduqları halda, qızlar arasında sosial və psixoloji bullinq növlərinə daha çox meylik var. Məqalədə lider şagirdlərin sosial təsirindən istifadə kimi yeni pedaqoji yanaşmalar da təklif olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə təqdim olunan profilaktik tədbir və yanaşmalar ümumtəhsil məktəblərinin pedaqoji heyəti – müəllimlər (xüsusilə də sinif rəhbərləri), psixoloqlar, tərbiyə işləri üzrə təşkilatçılar üçün istinad rolunu oynaya bilər. Eyni zamanda tədqiqatdan yararlanan valideynlər yeniyetməlik dövrünün xüsusiyyətləri haqqında məlumat toplayıb, övladlarının riskli davranışlarını tanıya və vaxtında müdaxilə etmək imkanına sahib ola bilərlər.

## Ədəbiyyat


1. Oksford lüğəti. https://www.oxfordlearnersdictionaries. com/definition/ english/adolescence
2. Eskin, M., Ertekin, H. ve Dereboy, Ç. (2008). Lise öğrencisi ergenlerde
3. depresyonun yaygınlığı ve ilişkili olduğu etmenler. Türk Psikiyatri Dergisi, 19(4), 382-389.
4. Erikson, E. H. (1968). Identity: Youth and Crisis. New York: W. W. Norton & Company. 155-160
5. Sullivan, H. S. (1953). The interpersonal theory of psychiatry. New York: W. W. Norton & Company. (242 (240-270).
6. Pişkin, M. (2002). Okul zorbalığı: tanımı, türleri, iliĢkili olduğu faktörler ve alınabilecek önlemler. Kuram ve Uygulamada Eğitim Bilimleri. 2 (2). 531-562.
7. Page, R.M. ve Page, S.T. (2003). Fostering emotional well-being in the classroom. Massachusetts:Jones & Barlett Publishers
8. Olweus, D. (1993). Bullying at School: What We Know and What We Can Do. Oxford: Blackwell.
9. Craig, W., Pepler, D., & Blais, J. (2007). Responding to Bullying: What Works?. School Psychology International, 28(4), 465–477.
10. Nansel, T. R., et al. (2001). Bullying Behaviors Among US Youth: Prevalence and Association With Psychosocial Adjustment. *JAMA*, 285(16), 2094–2100.

11. (Gini et al., 2007). Gini, G., Albiero, P., Benelli, B., & Altoè, G. (2007). Does empathy predict adolescents' bullying and defending behavior? *Aggressive Behavior*, 33(5), 467–476. https://doi.org/10.1002/ab.20204
12. Olweus, D. (1993). *Bullying at school: What we know and what we can do*. Blackwell Publishing.
13. World Health Organization. (2021). Suicide worldwide in 2019: global health estimates**.** Geneva: WHO.
14. Centers for Disease Control and Prevention. (2023). *Youth Risk Behavior Survey Data Summary & Trends Report: 2011–2021*.
15. Underwood, M. K., & Rosen, L. H. (2011). *Gender and bullying: Moving beyond mean differences to consider conceptions of bullying, processes by which bullying unfolds, and cyberbullying*. In Espelage, D., & Swearer, S. (Eds.), *Bullying in North American schools* (2nd ed.)

**Redaksiyaya daxil olub:**15.10.2025